# 525-ci qəzet

8 avqust 2012-ci il, çərşənbə №141 (3697). Qiymətі 20 qəpik

www.525.az

# Bakı Suriya ermənilərinin Qarabağa köçürülməsini pisləyir

### "ERMƏNİSTAN BU CÜR QANUNSUZ HƏRƏKƏTLƏRİ İLƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN NİZAMLANMASINA DAİR APARILAN SÜLH DANIŞIQLARINI HEÇƏ ENDİRİR"



Ermənistan kütləvi informasiya vasitələri erməni ailələrin Dağlıq Qarabağda məskunlaşdırılması ilə bağlı məlumat yayıblar. Xüsusilə Suriyanı tərk edən ailələrin Azərbaycanın işğal olunmuş ərazilərində məskunlaşdırıldığına dair erməni mətbuatında məlumatlar yer almaqdadır. APA-nın məlumatına görə, Azərbaycan artıq bununla bağlı BMT-yə, ATƏT-ə, Minsk Qrupuna həmsədrlik edən ölkələrə öz narahatlığını ifadə edib. Xarici İşlər Nazirliyindən bildiriblər ki, ATƏT-in Minsk Qrupu Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşma faktları araşdırmaq üçün dəfələrlə monitorinq keçirib: "Monitorinqlər zamanı Dağlıq Qarabağ və işğal olunmuş digər Azərbaycan torpaqlarında ermənilər tərəfindən qeyri-qanuni məskunlaşma siyasəti apardığı müəyyənləşib. Beynəlxalq ictimaiyyət bu siyasətin davam etdirilməsinə imkan verməməlidir".

Bu arada "Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" İctimai Birliyi Suriyada yaşayan ermənilərin Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ ərazisinə köçürülməsi barədə Ermənistan mətbuatında verilən məlumatlarla bağlı etiraz bəyanatı verib. Birlikdən daxil olan bəyanatda bildirilir: "Son vaxtlar Suriyadakı vəziyyətlə əlaqədar rejimə dəstək verən ermənilər baş verəcək hadisələrin qorxusundan ölkədən qaçır, Ermənistanda isə onların Azərbaycanın işğal altındakı ərazilərində yerləşdirilməsi məsələsi müzakirə olunmaqdadır. Verilən məlumatlara görə, onların Qarabağda yerləşdirilməsi üçün "Yenidən məskunlaşma üzrə İctimai Şura" yaratmaq, suriyalı ermənilərin işğal altındakı bölgələrdə düşərgə formasında məskunlaşdırılması təklifləri irəli sürülüb. Bütün bunlar Azərbaycan xalqının, o cümlədən Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının kəskin etirazına səbəb olub, bu təşəbbüslər "Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" İctimai Birliyi idarə heyətinin iclasında geniş müzakirə olunub və qətiyyətlə pislənib".

Qeyd olunub ki, Dağlıq Qarabağ bölgəsində tarixən yaşamış azərbaycanlılar, bu süni "məskunlaşdırma" siyasətini Azərbaycan Konstitusiyasının, beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulması ilə yanaşı, Azərbaycan torpaqlarında erməni tərkibinin süni şəkildə artırılması təşəbbüslərini məqsədyönlü addım kimi qiymətləndirir: "Yəni, Ermənistan hakimiyyəti belə hesab edir ki, Suriya ermənilərinin Qarabağa köçürülməsi bölgənin milli tərkibinə müəyyən qədər təsir göstərə bilər ki, bu isə erməni millətçilərinə Qarabağda ermənilərin azərbaycanlılardan guya daha çox olduğunu əsas gətirərək, müxtəlif iddialarla çıxış etmək imkanı verə bilər. Heç şübhəsiz ki, Suriyadan köç edən ermənilər daha çox kasıb və ya orta təbəqədən olan insanlardır. Bu səbəbdən, Azərbaycan ərazilərini 20 ildir ki, işğal altında saxlayan və xalqı səfalət içində yaşadan Ermənistan hakimiyyəti hesab edir ki, Suriyadan qaçan ermənilər Dağlıq Qarabağa köçürülə və orada məskunlaşdırıla bilər. Bu baxımdan Qarabağa köçən Suriya ermənilərinə isə Ermənistan hökuməti tərəfindən müəyyən güzəştlər və yardımlar edilir. Biz hesab edirik ki, Ermənistan özünün belə qanunsuz hərəkətləri ilə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması yolunda ATƏT-in Minsk Qrupu çərçivəsində aparılan sülh danışıqlarını, beynəlxalq birliyin regionda sülh və əməkdaşlıq yaratmaq təşəbbüslərini və icmalar arasındakı dialoq imkanlarını da heçə endirir. Bütün dünyaya bəllidir ki, Azərbaycanın işğal olunmuş ərazilərindəki tanınmamış qanunsuz rejim azərbaycanlı əhalinin etnik təmizlənməsi əsasında Ermənistan tərəfindən təşkil olunmuş cinayətkar qurumdur. Hesab edirik ki, Ermənistanın mövcud status-kvonu imkan qədər uzatmaq və öz işğalçılıq siyasətini ört-basdır etmək məqsədi ilə əvvəllər də müxtəlif vaxtlarda bəzi ölkələrdən, eləcə də son zamanlar Suriyadan ermənilərinin Qarabağa köçürülməsi təşəbbüsləri nəinki təkcə danışıqlar prosesinə, həm də bölgənin gələcək statusuna və inkişafına çox ciddi zərbə vurur. Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ümidvar olduğunu bildirir ki, Ermənistanın qeyri-konstruktiv hərəkətləri beynəlxalq birlik tərəfindən kəskin şəkildə qınanılacaq, bu ölkənin süni "məskunlaşdırma" və işğalçılıq siyasətinə son qoyulması üçün ən təsirli tədbirlər görüləcək".

# Milli Məclisin sabiq spikeri Murtuz Ələsgərov vəfat etdi



Azərbaycanın tanınmış ictimai-siyasi xadimi, Milli Məclisin keçmiş spikeri Murtuz Ələsgərov 84 yaşında vəfat edib. M.Ələsgərov uzun sürən xəstəlikdən sonra dünən Mərdəkanda, bağ evində dünyasını dəyişib.

Murtuz Ələsgərov bu gün torpağa tapşırılacaq. Bu gün səhər saatlarından başlayaraq sabiq spikerlə vida mərasimi keçiriləcək. Vida mərasiminin Şəhriyar adına Mədəniyyət Mərkəzində keçirilməsi nəzərdə tutulur. Murtuz Ələsgərov birinci Fəxri Xiyabanda dəfn olunacaq.

Murtuz Ələsgərov 1928-ci il sentyabrın 20-də Gəncə şəhərində anadan olub. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirib. 1954-cü ildən Azərbaycan Dövlət Universitetinin dövlət hüququ kafedrasının baş müəllimi, dosenti, 1957-ci ildən beynəlxalq hüquq kafedrasının müdiri vəzifələrində çalışıb. 1965-ci ildən universitetin konstitusiya hüququ kafedrasının müdiri işləyib.1993-1996-cı illərdə Bakı Dövlət Universitetinin rektoru olub.

Hüquq elmləri doktoru, professor, respublikanın əməkdar hüquqşünasıdır. "İstiqlal" ordeni, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib. MDB-nin "Sodrujestvo" ordeninə və Rusiya Federasiyasının "Dostluq" ordeninə layiq görülüb.

Murtuz Ələsgərov birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub, 1996-cı il oktyabrın 16-dan 2005-ci il dekabrın 2-dək parlamentin sədri vəzifəsində çalışıb. 2005-ci il noyabrın 6-dan 11 saylı Qaradağ seçki dairəsindən deputat seçilib. Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının, Azərbaycan-Fransa, Azərbaycan-Səudiyyə Ərəbistanı, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü olub.

## "ABŞ-da bəzi siyasətçilərin çıxışları ölkənin rəsmi mövqeyini əks etdirmir"

"Amerika Birləşmiş Ştatlarında bəzi siyasətçilərin çıxışları ölkənin rəsmi mövqeyini əks etdirmir. ABŞ dünyanın digər ölkələri kimi, Azərbaycanın bütövlüyünü dəstəkləyir və işğal olunmuş əraziləri Azərbaycan tərkib hissəsi kimi tanıyır". Bu açıqlamanı APA-ya Azərbaycan Xarici İşlər Nazirliyindən veriblər. Massaçusets ştatının Nümayəndələr Palatasında qondarma "Dağlıq Qarabağ respublikası"nın öz müqəddəratını təyinetmə hüququnun tanınmasına dəstək verilməsi xahişi ilə prezident və Konqresə müraciət qəbul olunmasını şərh edən XİN mətbuat xidmətindən bildiriblər ki, bu təşəbbüsün müəllifləri erməni diasporunun maddi imkanları hesabına özlərinə karyera qurmağa çalışırlar: "Bu yanaşma ABŞ dövlətinin deyil, o siyasətçilərin mövqeyini əks etdirir".

Qeyd edək ki, Nümayəndələr Palatasının üzvü Conatan Xetçin müəllifliyi ilə hazırlanan qətnamə layihəsində Azərbaycanın Ermənistan tərəfindən işğal altında olunmuş ərazilərində fəaliyyət göstərən separatçı rejim "demokratik təsisat" kimi təqdim olunur və "Dağlıq Qarabağ xalqının öz müqəddəratını təyinetmə mübarizəsinə dövlət səviyyəsində dəstək verilməsinin zəruriliyi" vurğulanır.

## "Rusiya Azərbaycanın Qarabağı güc yolu ilə geri qaytarmasını istəmir"

"Rusiya Azərbaycanın Dağlıq Qarabağı güc yolu ilə geri qaytarmasını istəmir". APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu fikirləri rusiyalı tanınmış politoloq, Moskva Karnegi Mərkəzinin direktoru Dmitri Trenin müəllifi olduğu "Post İmperium" kitabında yazıb. Müəllifin sözlərinə görə, Ermənistan Rusiyanın Cənubi Qafqazda rəsmi tərəfdaşıdır: "Ermənistan regionda Rusiya hərbi bazasının yerləşdiyi yeganə dövlətdir. 2010-cu ilin avqustunda Ermənistanla rəsmi Moskva arasında Rusiya hərbi bazasının bu ölkədə saxlanılmasının müddətinin 2044-cü ilə qədər uzadılması haqqında müqavilə imzalanıb. Gümrüdəki hərbi bazanın əsas vəzifəsi şimalda Gürcüstanı, cənubda Türkiyəni, şərqdə isə Azərbaycanı nəzarətdə saxlamaqdır. Məlumdur ki, Rusiya bu müqavilə ilə regionda öz təhlükəsizlik perimetrini möhkəmləndirir. Bu müqavilə ilə Rusiya Ermənistanın sərhədlərinin toxunulmazlığını zəmanət altına alır və bu rəsmi Bakıya da bir işarədir ki, o Dağlıq Qarabağı güc vasitəsi ilə almağa cəhd etməsin".

Rusiya-Azərbaycan münasibətlərini şərh edən politoloq bildirib ki, Rusiya üçün Azərbaycan regionun enerji siyasətində mühüm yer tutur: "Buna baxmayaraq Rusiya rəsmi Bakının Qərbin neft nəhəngləri ilə, o cümlədən Türkiyə ilə sıx əlaqələrinə səbirlə yanaşmağa hazır olduğunu bəyan edib. Lakin Vaşinqtonun Azərbaycan və Qazaxıstana hərbi dəniz qüvvələrini modernləşdirməyə kömək etməsi rəsmi Moskvanın üreyincə deyil. Rusiya bir daha prinsipial olaraq bəyan edir ki, Xəzər dənizi ancaq sahilyanı ölkələrə məxsusdur. Kənar ölkələr isə Xəzər dənizinin təhlükəsizlik problemləri ilə məşğul ola bilməzlər. Bununla əlaqədar ABŞ-ın "Xəzər qoruyucusu" (Kaspiyskiy straj) təşəbbüsünə cavab olaraq Rusiya tərəfi Xəzəryanı ölkələrin hərb-dəniz dəstəsi "CASFOR-"u yaratmağı təklif edib".

### Ramazan bayramına görə üç gün iş olmayacaq

Azərbaycanda Ramazan bayramı ilə əlaqədar üç gün qeyri-iş günü olacaq. APA-nın Nazirlər Kabinetinə istinadən verdiyi məlumata görə, Ramazan bayramı ilə əlaqədar bu il 19-20 avqust tarixləri qeyri-iş günü elan edilib. 19 avqust bazar gününə təsadüf etdiyindən, bayramdan sonrakı növbəti iş günü — 21 avqust tarixi də qeyri-iş günü elan olunub.

### Ordumuz daha iki əsgərini itirdi

Azərbaycan ordusu daha bir əsgərini itirib.

APA-nın məlumatına görə, hadisə Müdafiə Nazirliyinin Lənkəranda yerləşən "N" saylı hərbi hissəsində, qeydə alınıb. Əsgər, 19 yaşlı Kamal Sahib oğlu Alıyev avqustun 1-də yeməkxananın damından yıxılaraq xəsarətlə hospitala yerləşdirilib. Lakin aldığı xəsarət ağır olduğundan onu xilas etmək mümkün olmayıb. K. Alıyev avqustun 3-də dünyasını dəyişib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya faktı təsdiqləyiblər.

Qeyd edək ki, S. Alıyev Tovuz rayonundan həqiqi hərbi xidmətə çağırılıb.

Daha bir əsgərimiz isə xəstəlikdən dünyasını dəyişib. Hadisə Müdafiə Nazirliyinin Naxçıvanda yerləşən "N" saylı hərbi hissəsində qeydə alınıb. 1994-cü il təvəllüdlü Bəyov Tayfur Hacıkərim oğlu hemoqradik vaskulit xəstəliyindən hospitalda dünyasını dəyişib.

T. Bəyovun bu ilin aprel ayında Qusar rayonundan həqiqi hərbi xidmətə çağırıldığı bildirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəis müavini, mayor Teymur Abdullayev faktı təsdiqləyib.

## Suriyadakı səfirliyimiz fəaliyyətini rəsmən dayandırdı

### AZƏRBAYCANIN SƏFİRİ VƏ SƏFİRLİYİN ƏMƏKDAŞLARI SURİYANI TƏRK ETDİLƏR

Azərbaycanın Suriyadakı səfiri Mahir Əliyev və səfirliyin əməkdaşları ölkəni tərk ediblər. APA-nın məlumatına görə, bu barədə jurnalistlərə Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib. Onun sözlərinə görə, səfir və diplomatik missiyanın əməkdaşları Suriyanı mövcud vəziyyəti və təhlükəsizlik amillərini nəzərə alaraq tərk ediblər. Səfirliyin Dəməşqdə fəaliyyətini nə zaman bərpa edəcəyi məlum deyil. Səfirlikdə qeydiyyatda olan 60-a yaxın Azərbaycan vətəndaşının da ölkəni tərk etdiyi bildirilir. XİN-dən bildiriblər ki, hazırda Suriyada Azərbaycan vətəndaşı yoxdur: "Ümidvarıq ki, ölkədə vəziyyət tezliklə stabilləşəcək və Suriyadakı səfirliyimiz öz normal iş rejimini bərpa edə biləcək".



Qeyd edək ki, hazırda Suriya paytaxtında və ayrı-ayrı şəhərlərdə müxalifət qüvvələri ilə Bəşər Əsədə tabe olan qoşunlar arasında qanlı döyüşlər davam edir. Dünən müxalifət Suriya dövlət televiziyasını partlatmağa nail olub. Suriyanın baş naziri Riyad Hicab ailəsi ilə birgə ölkədən qaçıb və müxalifətin tərəfinə keçmək niyyətində olduğunu açıqlayıb.

## Ermənilər bir neçə istiqamətdə atəşkəs rejimini pozublar

Azərbaycan torpaqlarının bir hissəsini işğal altında saxlayan Ermənistan Silahlı Qüvvələri qoşunların təmas xəttində atəşkəs rejimini pozmağa davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının İcevan rayonunun Berkaber, Noyenberyan rayonunun Voskevan, işğal olunmuş Füzuli rayonunun Horadiz, Goranboy rayonunun Tapqaraqoyunlu, Ağdam rayonunun Şırvanlı, Baş Qərvənd kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən atəşkəs rejimini pozublar. Düşmən cavab atəşi ilə susdurulub.

# İsti hava bu gün də davam edəcək

### BAKIDA VƏ ABŞERON YARIMADASINDA 40, BƏZİ BÖLGƏLƏRDƏ İSƏ 41 DƏRƏCƏ İSTİ PROQNOZLAŞDIRILIR

Bu gün ölkə ərazisində hava şəraitinin isti, yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin az buludlu, yağmursuz olacağı gözlənilir. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 22-27, gündüz 36-38, yarımadanın bəzi yerlərində isə 40 dərəcə isti olacaq.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 26-27, Buzovna, Mərdəkan, Şüvəlanda 27-28, Türkan, Hövsan, Sahil, Şıxda 29-30 dərəcə isti olacaq.

Bu gün Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz olacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26, gündüz 36-39, bəzi yerlərdə 41, dağlarda gecə 13-18, gündüz 25-30 dərəcə isti olacaq.

# Ermənilər əkin sahələrini atəşə tutdu

Ermənistan ordusunun birləşmələri Tərtərin Qapanlı kəndini və sakinlərə məxsus otlaq, əkin sahələrini atəşə tutub. APA-nın Qarabağ bürosunun xəbərinə görə, ötən gün axşam saatlarında atəşkəsin pozulması nəticəsində bir neçə baş mal-qara tələf olub, bir neçə baş iribuynuzlu heyvan yaralanıb. Sahədə çalışan adamları və kənd təsərrüfatı texnikasının da hədəfə alan düşmən kəndi uzun müddət atəş altında saxlayıb. Atəşkəs rejiminin pozulması nəticəsində kənd sakini Elməddin Quliyevə məxsus xırdabuynuzlu heyvanlardan bir neçəsi tələf olub. Başqa kəndlilərə məxsus iki baş iribuynuzlu heyvan çoxlu sayda güllə yarası alıb, bir baş heyvan tələf olub.

Həmin vaxt sahədə çalışan kəndlilər də hədəfə alınsa da, xoşbəxtlikdən zərər çəkən olmayıb. Kənd sakinləri əkin və otlaq sahələrinin düşmən mövqelərindən aydın göründüyünü, əkin-biçin işlərini gecə görməyə məcbur olduqlarını bildiriblər.

Baxış bucağı

Hüseyn XƏZƏR



# Ana dilimiz: vətəndaş mövqeyi, təəssübkeş münasibəti

Bugünlərdə eşitdim ki, ölkə Prezidenti İlham Əliyev "Dilimizin qorunması barədə Dövlət Proqramı"nın hazırlanması üçün işçi qrupun yaradılması, təkliflərin verilməsi, müzakirələrin aparılması, layihənin hazırlanması barədə — təxminən belə məzmunda — bir sərəncam imzalayıb. Bu sərəncamdan irəli gələn işlərin görülməsi üçün də bu ilin 1 oktyabrınadək vaxt verilib.

Bir azərbaycanlı, təəssübkeş vətəndaş olaraq çox sevindim. Prezidentimizin bu nəcib qərarına heyran qaldım. İllər boyu içimizi göynədən bu məsələyə axır ki, toxunuldu. Özü də buna lap ölkə rəhbəri birbaşa müdaxilə etdi. Demək, artıq toxunulan məsələ uçurum qarşısında dayandırıldı və əminliklə deyə bilərəm ki, o üzü yaxşıya, müsbətə yönəldildi. Çox şükr etdim Tanrıya. Yaxşı ki, belə ciddi məsələlərə diqqət və həssaslıqla yanaşan prezidentimiz var. Cavabdeh qurumların gözündən yayınan bu cür incə, lakin gələcəkdə millətimiz üçün ən ağır fəsadlar verə biləcək boyük bir faciənin hörmətli prezidentimizin gözündən yayınmaması və qabaqlayıcı tədbir görməsi çox təqdirəlayiq bir işdir. Odur ki, milyonların ürəyincə olan bu sərəncamın verilməsinə görə hörmətli Prezidentimiz İlham Əliyevə elə milyonların da adından minnətdarlığımı bildirirəm. Dövlətin və xalqın parlaq gələcəyi naminə görülən bütün işlərdə ona bir azərbaycanlı vətəndaş olaraq uğurlar diləyirəm.

Elə bu xəbəri eşitdiyim günün səhəri belə məsələlərdə həmişə fəal olan İctimai Televiziyada bu mövzuda ciddi müzakirələrin getdiyinin şahidi oldum. "Ortaq məxrəc"in qonaqları olan yaxşı tanıdığımız ziyalılar — Sabir Rüstəmxanlı, Nizami Cəfərov, Qəzənfər Kazımov, Rəşad Məcid və başqaları bu mövzuda həyəcanlı müzakirələr, dəyərli, zəruri söhbətlər edir, nümunələr, misallar gətirir, təkliflər verirdilər. Fikirləşdim ki, əgər bu səpgidə verilişlər, müzakirələr varsa, demək işə start verilib və hər halda uğurlu nəticə gözləmək olar.

Fikrimcə, hər bir vicdanlı vətəndaş milli-mənəvi sərvətlərin göz önündə itirildiyini gördükcə, həmin hissləri keçirməli və ən azından gələcək nəsillər qarşısında nə cavab verəcəyi barədə düşünməlidir. Son illər məni və tanıdığım-tanımadığım neçə-neçə əsl azərbaycanlını narahat edən bəzi milli-mənəvi dəyərlərimizin şüurlu və yaxud şüursuz şəkildə məhvinə yönəlmiş bir proses virus kimi yayılmaqdadır. Bu hansı prosesdir?

Bu, dilimizə yad sözlərin gətirilməsi və yayılması üçün ona münbit şəraitin yaradılması prosesidir. Baxmayaraq ki, azərbaycan dili kifayət qədər zəngindir və yeni terminlərdən başqa dilimizə hər hansı bir sözün gətirilməsinə heç bir zərurət yoxdur.

Bu proses —"dilin yeniləşmə prosesi" müstəqillik illərindən başlayaraq indiyə qədər sürətlə davam edir. O zamanlar — 1990-cı illərin əvvəllərində dilimizə gətirilən sözlərin əksəriyyəti beynəlxalq aləm tərəfindən qəbul edilmiş terminlər idi ki, bu da bizim dünyaya çıxış (inteqrasiya) məsələlərində işimizə yarayırdı. Məsələn; alternativ, konsorsium, kvorum, investisiya, inteqrasiya və s. Qısa zamanda bu sözlərin tərcüməsi də xalqa izah olundu və bu sözlər yeri gəldikcə həm əcnəbi, həm də doğma dildə işlədilməyə başladı. Amma get-gedə artıq hər şeydə olduğu kimi bu sahədə də başladıq "ucunu alıb, ucuzluğa getməyə". Meydan verildisə, başladıq bu meydanda "hünər" göstərməyə. "Gözəl sözlər yetişdirib" yaymağa. Məsələn; "Bomba oğlan", "yek", "meqastar", "yes","super", "adrenalin","lomka","yedinka" kimi, tinlərdə və məhbəsdə həvəslə istifadə olunan "sözlər" ayaq tutub cəmiyyət içinə yeriməyə başladı. "QAİ","probka", "ştobı", "vapşe","tak şto" və s. bu kimi yabançı sözlər isə, demək olar ki, dilimizə daxil edilib.

Haqq üçün deyim ki, belə "yeniliklərə" yazılı mətbuatda çox az rast gəlmək olur.

Acınacaqlısı budur ki, əksər hallarda mənasız, mentalitetimizə və dialektimizə zidd olub yaxşı bir şey verməyən bu sözlər məhz dilimizi qorumağa borclu olan teveviziya və radiolarımız tərəfindən yayılır. Ondan da acınacaqlısı budur ki, bu "sözlər"əksər hallarda müsahib tərəfindən deyil, məhz teleradio əməkdaşı-aparıcısı tərəfindən gen-bol işlədilir. Kanalın və aparıcıların adlarını çəkmədən onların işlətdikləri bir neçə "sözü" diqqətinizə çatdırıram: "Ə, şalvarın səni padvadit elədi", "dumbul kimisən"...

Bəzi hallarda efir-ekrandan olduqca kobud, bayağı, etikadan kənar ifadələr işlədilir. Axı bütün bu "sözlər" gündən-günə adiləşməyə,o cümlədən yeniyetmə və gənc nəslin tərbiyəsinə, əxlaqına mənfi təsir etməyə başlayır. Nəticə etibarı ilə gələcəyimizə mənəvi zərbə endirməyə xidmət edir. Mənəviyyatı pozulmuş bir millətin aqibəti isə faciədir.

İdman şərhçiləri isə lap bərbaddırlar.Məsələn; "Oyun başladığı kimi də qurtardı". Burada əgər nəzərdə hesab tutulursa, onda deməlisən ki, "oyun başladığı hesabla da sona yetdi". Və yaxud da ki, "kiçik bir qısa fasilədən sonra görüşərik", "bizimkilər dalda çox pis oynadılar", futbol "dilində" deyilməlidir ki, "müdafiədə pis oynadılar" və i.

Bundan əlavə gözəl azərbaycanlı adlarını yaman günə qoyaraq, yabançılaşdırmaq yeniliyi. "Sabina", "Rena", "Samira" və s.

Uzun illər özümüzü danışığımızla, davranışımızla, geyimimizlə bir millətə, indi isə daha bir neçə millətə oxşatmağa niyə çalışırıq görəsən? Əziz azərbaycanlılar, dünyaya inteqrasiya etmək öz millətindən yadlaşa-yadlaşa yadlara qarışmaq demək deyil.

Divarlardakı və lövhələrdəki adlardan, reklamlardan belə heç danışılası deyil. Azərbaycan dünyanın bəlkə ən "qabaqdagedən" ölkəsidir ki, şirkət, firma, müəssisə və s. adlarını əcnəbi dildə yazmağa meyllidir. Bugünlərdə Bakının bir mərkəzi küçəsiylə gedərkən lövhələrdə iyirmi ad oxudum ki, onların 13-ü əcnəbi dildə idi, heç başa da düşmədim. Görəsən, müvafiq qurumlar onları qeydiyyatdan keçirəndə bu adların sahmana salınmasını, azərbaycanlaşdırılmasını təklif və tələb etmirlər?

Belə rüsvayçı misalları istənilən qədər sadalaya bilərəm. Amma hesab edirəm ki, buna lüzum yoxdur. Çünki belə "qəhrəmanlıqlar" gündəlik həyatda adiləşib.

Qeyd edim ki, bəzi aparıcılar belə qüsurlara, demək olar, qətiyyən yol vermir, hətta müsahibinə də veriliş boyu hissolunmaz tərzdə düzəlişlər edir. Bu onun savadından və bacarığından irəli gəlir. Belə jurnalist keyfiyyətlərindən məhrum olanlar isə daha çoxdur. Haqq üçün deməliyəm ki, bu işdə AzTV ilə İTV müsbət mənada fərqlənir. Şükürlər olsun ki, onların rəhbərləri öz işçilərini hələ ekran-efir çərçivəsində saxlaya bilirlər.

Təxminən iki ay əvvəl TV-lərin birində çox hörmətli dilçi-ziyalımızın birinə yeni sözlərin dilimizə daxil olması barədə sual veriləndə o, heç bu sualı detallara bölmədən bildirdi ki, bu, normal haldır və bu tarix boyu belə olub, belə də olacaq. Yəni o ziyalı dilimizə olan bu təcavüzə bəraət qazandırdı. Lakin o, yeni sözün "süzgəcdən" keçirilib orfoqrafik tələblərə, dialektimizə və bir sıra milli xüsusiyyətlərimizə uyğun gəlib-gəlməməsi öyrənildikdən sonra dilə daxil edilməsi və əks halda onun dərhal uzaqlaşdırılması zərurətini, təəssüf ki, qeyd etmədi.

İctimaiyyəti narahat edən bu vacib məsələnin müsbət həlli yönündə ölkə prezidentinin sərəncamından sonra gərəkli addımlar atılmaqdadır. Ümidvarıq ki, müvafiq qurumlar, məsul şəxslər və hər bir azərbaycanlı bu işdə fəal olacaq, uğurlu nəticə alınması üçün üzərinə düşən işi layiqincə yerinə yetirəcək.

# Bu ildən I-V siniflərdə iş dəftərlərindən istifadə olunmayacaq

Yeni tədris ilindən etibarən I və V siniflər üzrə tədris prosesində iş dəftərləri tətbiq edilməyəcək. Təhsil Nazirliyinin dərslik və nəşriyyat şöbəsinin müdiri Faiq Şahbazlının sözlərinə görə, bu siniflər üzrə iş dəftərləri dərslik komplektinin tərkib hissəsi hesab olunmayacaq və ondan istifadə məcburi hesab edilmir. Nazirliyin şöbə müdiri müəllim və məktəblərə bir daha xatırladıb ki, I və V siniflərdə iş dəftərlərinin aldırılması vacib deyil: "Amma yenə də könüllü olaraq şagirdlər II, III və IV siniflərdə iş dəftərlərindən istifadə edə bilər. İş dəftərləri ilə bağlı problemlər bizləri hər zaman narahat edirdi. Bu bir yenilik olaraq kurrikulum əsasında hazırlanan dərslik komplektlərinin tərkib hissəsi idi. İş dəftərlərinin olması yaxşı addım idi. Amma reallıqlar bizə başqa şeyləri dedi. Aparılan monitorinqlər zamanı məlum oldu ki, Bakıda xüsusilə rayonlarda iş dəftərini hər kəs ala bilmirdi. Bizə çatan məlumat və şikayətlərə görə 1 sinif üzrə iş dəftərlərinin qiyməti təxmini 30-35 manat olurdu. Bir ailədə 2-3 şagird olduqda bu rəqəm 100 manatdan çox edir. Ona görə də düşündük ki, iş dəftərlərinin olmaması o qədər də problemə çevrilməz. İş dəftərində olan əsas tapşırıqları dərslik vəsaitinə gətirsək, bununla iş dəftərinə olan ehtiyacı aradan qaldırarıq. Bununla da həm şagird, həm valideynlər qazanır, məktəbdə bu problemlər yaşanmır. Təhsil Nazirliyi də bu narazılıqdan qurtarır".

S.QARAYEVA

# Dövlət qulluğuna qəbul üçün yeni müsabiqə elan edilib

Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya 2012-ci il 7 avqust tarixindən 64 dövlət orqanında inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan 702 vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqə (mərkəzi icra hakimiyyəti və məhkəmə orqanları üzrə) elan edib.

Komissiyanın mətbuat xidmətindən verilən məlumata görə, müsabiqəyə çıxarılan vakant dövlət qulluğu vəzifələrindən 556-sı mərkəzi icra hakimiyyəti orqanlarının mərkəzi aparatları və yerli təşkilatlarında, 146-sı isə apellyasiya və birinci instansiya məhkəmə orqanlarının aparatlarındadır. "Dövlət qulluğu haqqında" Qanununun 28-ci maddəsinə uyğun olaraq müsabiqəyə çıxarılmış vakant dövlət qulluğu vəzifələrinin tutulma prosesi iki mərhələdən — test imtahanı və müsahibə mərhələlərindən ibarətdir. Müvafiq vəzifənin tələblərinə uyğun gələn, ali təhsilli hər bir Azərbaycan Respublikasının vətəndaşı müsabiqədə iştirak edə bilər.

Müsabiqənin test imtahanı zamanı namizədlərin aşağıda qeyd olunan sahələr üzrə bilikləri yoxlanılacaq: dünyagörüşü, o cümlədən Azərbaycan haqqında ümumi biliklər və Azərbaycan dili üzrə — 15 test tapşırığı, qanunvericilik sahəsində — 40 test tapşırığı, informasiya texnologiyaları sahəsində — 15 test tapşırığı, məntiqi düşünmə qabiliyyəti sahəsində — 30 test tapşırığı. Komissiyanın test tapşırıqlarının hazırlanması üçün tərtib etdiyi ümumiləşdirilmiş proqram və metodiki vəsait Komissiyanın rəsmi internet saytında yerləşdirilib. Test imtahanı zamanı test tapşırıqları bu proqramlar çərçivəsində olacaq. Dövlət qulluğuna qəbul edilmək üçün vətəndaşlar müsabiqə elan edilən gündən etibarən 30 gün ərzində Komissiyaya müraciət edə bilərlər. Forması Nazirlər Kabinetinin qərarı ilə müəyyən edilən müraciət elektron və ya kağız daşıyıcılar vasitəsilə göndərilə bilər. Test imtahanından müvəffəqiyyətlə keçən namizədlər 10 iş günü müddətində qanunvericiliklə müəyyən edilmiş sənədlərini Komissiyaya təqdim etməlidirlər. Müraciət formasında təhrif olunmuş məlumatlar verən namizədlər müsabiqədən kənarlaşdırılacaqlar.

S.QARAYEVA

# Magistraturada boş qalan yerlərə qəbul aparılır

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) Azərbaycanın ali təhsil müəssisələrinin magistraturalarının boş qalan yerlərinə qəbul elan edib.

Komissiyanın mətbuat xidmətindən verilən məlumata görə, qəbul bu il martın 4-də və iyunun 24-də keçirilmiş iki mərhələli qəbul imtahanında toplanılmış ballar əsasında müsabiqə yolu ilə aparılır. Ali təhsil müəssisəsinin magistraturasına qəbul olunmuş bakalavrların boş qalan plan yerlərinə keçirilən müsabiqədə iştirak etmək hüququ yoxdur. Bakalavrlar boş qalan yerlərə keçirilən müsabiqədə iştirak etmək üçün bu gün saat 9.00-dan avqust 13-ü saat 9.00-dək TQDK-nın internet saytının müvafiq səhifəsinə (tqdk.gov.az/erizemagistr) daxil olub, seçdiyi ixtisaslaşmaların kodlarını "Bakalavrın elektron ərizəsi"ndə qeyd edib təsdiqləyirlər. Ərizəni təsdiq etmək üçün bakalavrlar TQDK-nın yeni virtual ödəmə kartını almalı və ixtisaslaşma seçimini təsdiq etmək üçün həmin kartın şifrindən istifadə etməlidirlər. Boş qalan plan yerləri olan ixtisaslaşmaların siyahısı "Magistr" jurnalının 6-cı sayında dərc olunub. Hər bir bakalavr bu siyahıdan imtahan verdiyi proqrama aid və bitirdiyi bakalavr ixtisasına müvafiq 20-dək ixtisaslaşma kodunu seçə bilər. Dövlət hesabına magistraturada təhsil almış magistrlər dövlət sifarişi ilə qəbul aparılan yerləri seçə bilməzlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, qüvvədə olan qanunvericilikdə və dövlətlərarası razılaşmalarda digər hallar nəzərdə tutulmayıbsa, dövlət sifarişi ilə qəbul aparılan yerləri seçə bilməzlər. Tədrisi ingilis dilində olan ixtisaslaşmaların dövlət sifarişi üzrə ayrılmış yerlərini seçmək üçün bakalavrın imtahanın birinci mərhələsində ingilis dilindən balı 20-dən, ödənişli yerlərini seçmək üçün isə 15-dən az olmamalıdır. Ali təhsil müəssisələrinin magistraturalarına qəbulun nəticələri ilə əlaqədar müraciətlərə TQDK-da yaradılmış apelyasiya komissiyası tərəfindən avqustun 7-dən 9-dək baxılır.

S.QARAYEVA

# Standartlara cavab verməyən bir neçə məhsulun istehsalı dayandırılıb

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi bəzi istehsal müəssisələrində yoxlamalar aparıb. Komitədən verilən məlumata görə, Bakı şəhərində fiziki şəxs Aqil Sultanova məxsus sexdə tort və pirojnalar, şərq şirniyyatları, keks və bulka məmulatları, fiziki şəxs Xanağa Məlikova məxsus sexdə çörək, fiziki şəxs Elman Tarıverdiyə məxsus sexdə süd məhsulları, Abşeron rayonunda fiziki şəxs Yusif Şəfiyevə məxsus sexdə "Abşeron broyler" əmtəə nişanlı toyuq içalatı və toyuq hissələri, becərilən təzə şampinyon və asılqal göbələkləri, Lənkəran rayonunda fiziki şəxs Ağababa Qasımova məxsus sexdə çörək istehsalı və satışı qadağan edilmiş, istehlakçıları çəkidə aldatdığına görə "Qaradağ Tikinti Materialları" ASC tərəfindən istehsal olunan və üzərində "Qaradağ-BQZ" əmtəə nişanı ilə satışa buraxılan sementlə bağlı toplanmış faktlar Baş Prokurorluğa göndərilib.

BƏXTİYAR

# Kreditlər qapınıza gəlir aksiyaları davam edir

Ötən həftə sonu Bakının Qara Qarayev metro stansiyası yaxınlığında yüzlərlə müştərilərin iştirakı ilə "Unibank"-ın növbəti kredit yarmarkası keçirildi."Kreditlər qapınıza gəlir" şuarı altında təşkil olunan bu aksiya zamanı Bankın xüsusi yaratdığı mobil ofisi vasitəsi kredit sifarişlərinqəbulu aparılıb.




Potensial müştərilərin rahatlığını tam təmin etmək məqsədi ilə yarmarka yenidən axşam saatlarında təşkil edilib və əhalinin kütləvi maraqına səbəb olub. Bu zaman yüzlərlə vətandaşlar və iş adamlardan nağd kreditlər, kredit kartları, mikro- və avtokreditlərin cəlb olunması üzrə müraciətlər qəbul olunub. Nəticədə "Unibank"-ın mobil ofisinə gün ərzində kreditlər üzrə 200 yaxın müştəri müraciət edib.Ənənəvi olaraq, əsas maraq 2500 manata qədər zaminsiz və qirovsuz verilən nağd kredit və "Evdar xanım" kreditlərinə göstərilib. Bu növ kreditlər əksər hallarda yalnız iş yerindən arayış əsasında verilir, kreditlərin məbləği isə borcalanın və yaxud onun yaxın ailə üzvlərinin gəlirlərindən asılıdır.

Aksiya zamanı kredit sifarişini "Unibank"-a təqdim edən müştərilərdən biri, evdar xanım Sevinc Cabbarova bunu belə şərh edir: "Bilirsiniz, dəfələrlə rəfiqələrimlə "Evdar xanım" krediti barədə danışmışaım, amma heç bilməzdim ki, mən banka yox, "Unibank" bizə qonaq gələcək. Mobil ofis çox gözəl təşəbbüsdür, çünki mənim kimi körpə uşağı olan evdar xanımlara kreditlərin şərtlərini öyrənmək belə daha rahat olur. Düzünü desəm, şəxsən mənim üçün kredit cəlb etmək əvvəl baş ağrısı idi, bu gün isə bu işin çox sadə və rahat bir addım olduğunu "Unibank" mənə sübut etdi. Cəmi 15 dəqiqə ərzində kredit sifarişim qəbul olundu. Artıq dəqiq bilirəm ki, "Unibank"-ın əhaliyə təklif etdiyi kreditlər həm sərfəli, həm də realdır".

Xatırladaq ki, istehlak kreditlər üzrə Bankın effektiv faiz dərəcəsi illik 16%-dan başlayır. İstənilən istehlak ehtiyaclara ayrılan kreditlərin məbləği isə borcalanın gəlirlərindən asılıdırvə 300 AZN-dən 5000 AZN-ə qədər təşkil edə bilər. Əksər hallarda 2500 manata qədər kreditlər girovsuz və zaminsiz verilir.

# İranda həbsdə saxlanılan Azərbaycan şairlərinin məhkəməsi keçirilib



Dünən İranda həbsdə saxlanılan Azərbaycan şairlərinin — Fərid Hüseyn və Şəhriyar Hacızadənin məhkəmə prosesi keçirilib.

Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Azərbaycan tərəfinin səyləri ilə bu gün keçirilən davam etdirilən prosesdə ölkəmizin Təbrizdəki Baş Konsulluğunun iki əməkdaşı və şairlərin yaxın ailə üzvləri iştirak edib.

Prosesdə şairlər onlara verilən sualları cavablandırıb, günahkar olmadıqlarını bir daha vurğulayıblar. Şairlər İrana səfər etməkdə hər hansı cinayət xarakterli niyyətlərinin olmadığını qeyd ediblər.

XİN-in məlumatına görə, Azərbaycan vətəndaşlarına verilən suallar İrana səfərin məqsədi və mahiyyəti ilə əlaqədar olub.

Məhkəmənin hakimi şairlərin konkret olaraq hansı maddələrlə ittiham olunmaları barədə heç bir məlumat verməyib və yaxın günlərdə məhkəmənin qərarının açıqlanacağını deyib.

Fərid Hüseyn, Şəhriyar Hacızadə İrana poeziya axşamında iştirak etmək üçün səfər etdiklərini, cinayət törətmək niyyətində olmadıqlarını vurğulayıblar.

Qeyd olunub ki, Azərbaycan şairlərinə hər hansı ittiham irəli sürülmədən təxminin 3 aya yaxın həbsdə saxlanılandan sonra cinayət təşəbbüsü ilə çıxış etdikləri bildirilib.

Xatırladaq ki, Fərid Hüseyn və Şəhriyar Hacızadə İrana şeir festivalında iştirak üçün gedib və mayın 2-də orada həbs olunublar. İran tərəfi uzun müddət azərbaycanlı şairlərin saxlanması xəbərini təsdiqləməyib. Daha sonra hər iki azərbaycanlının həbsxanada saxlandığı məlum olub. Azərbaycan Xarici İşlər Nazirliyi baş verən hadisəyə aydınlıq gətirilməsi tələbi ilə İrana bir neçə dəfə rəsmi nota verib. Lakin İran tərəfi bu notaları cavablandırmayıb. Tehranın kütləvi informasiya vasitələri soydaşlarımızın İran əleyhinə casusluq fəaliyyətində günahlandırıldığını iddia etsələr də, sonradan bu məlumat təsdiqlənməyib. İran tərəfi ilə əldə olunan razılaşmaya əsasən Azərbaycanın bu ölkədəki diplomatik nümayəndəliyinin əməkdaşları Fərid Hüseyn və Şəhriyar Hacızadə ilə görüşməyə müvəffəq olublar. Görüş zaman hər iki şəxs onların İran ərazisinə qanunsuz şəkildə daxil olmaqda ittiham edildiklərini deyiblər. İran xarici işlər nazirinin müavini Arakçının Azərbaycana səfəri zamanı həbs olunan şairlərlə bağlı məsələnin müzakirə olunacağı gözlənilsə də, səfər iki dəfə təxirə salınıb.

İran xarici işlər nazirinin digər müavini Hüseyn Əmir Abdullaxiyan ötən həftə Moskvada keçirdiyi mətbuat konfransında APA-nın Moskva müxbirinin həbsdə olan azərbaycanlı şairlərlə bağlı sualını cavablandırmaqdan boyun qaçırıb: "İranda azərbaycanlı şairlərin həbsindən xəbərim yoxdur. Məsələnin detalları barədə heç nə bilmirəm".

# Ötən həftə 132 əcnəbi saxlanılıb



Azərbaycan Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti (DMX) tərəfindən həyata keçirilən tədbirlər ötən həftə ərzində də davam etdirilib. Xidmətdən verilən məlumata görə, iyulun 30-dan avqustun 5-i tarixində DMX tərəfindən Bakı və Siyəzəndə qanunsuz miqrasiyaya qarşı keçirilən müvafiq tədbirlər nəticəsində Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə zidd olaraq fərdi icazə alınmadan əmək fəaliyyətinə cəlb edilmiş, eyni zamanda ölkədə olma və yaşama qaydalarını pozmuş 132 əcnəbi aşkar edilib. Həmin şəxslər barəsində Azərbaycan Respublikasının inzibati qanunvericiliyinin tələblərinə uyğun olaraq müvafiq qərarlar qəbul edilib.

Qeyd edək ki, DMX tərəfindən qanunsuz miqrasiyanın aşkar edilərək qarşısının alınması istiqamətində paytaxtda və ölkənin regionlarında müvafiq tədbirlər davam etdirilir.

BƏXTİYAR

# QKDK-da Dünya Bankının Cənubi Qafqaz üzrə Regional direktoru ilə görüş keçirilib

Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində (QKDK) Dünya Bankının Cənubi Qafqaz üzrə Regional direktoru Henri Kerali ilə görüş keçirilib. Komitədən verilən məlumata görə, görüşdə QKDK-nın sədr müavini Comərd Əliyev Azərbaycan iqtisadiyyatının dinamik inkişafından və bu sahədə əldə olunan uğurlu nəticələr haqqında, o cümlədən qiymətli kağızlar bazarının inkişaf mərhələlərindən və gələcəkdə qarşıya qoyulmuş hədəflər barədə ətraflı məlumat verib.

Daha sonra Dünya Bankının Cənubi Qafqaz üzrə Regional direktoru Henri Kerali Azərbaycanın beynəlxalq maliyyə qurumları, eləcə də Dünya Bankı ilə səmərəli əməkdaşlığından məmnun olduğunun və bu əməkdaşlığın gələcəkdə də uğurla davam etdiriləcəyini bildirib.

Görüşdə, həmçinin Azərbaycan hökuməti ilə Dünya Bankı arasında imzalanmış "Kapital Bazarlarının Müasirləşdirilməsi" layihəsinin hazırki icra vəziyyəti və gələcək əməkdaşlıq istiqamətləri müzakirə olunub.

BƏXTİYAR

# Yasamal rayonunda kanalizasiya və yağış sularının axıdılması üçün yeni xətt tikilir

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti (ASC) Bakı şəhərində kanalizasiya infrastrukturunun və ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində kompleks tədbirləri davam etdirir. ASC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata göprə, tədbirlər planına uyğun olaraq Bakı şəhəri Yasamal rayonu M. Xiyabani küçəsindən başlayaraq H. Zərdabi küçəsi boyunca ərazidəki kanalizasiya və yağış sularının axıdılması üçün hər birinin uzunluğu təqribən 1000 metr olan 2 magistral xətt tikilir. 500 mm diametrli polietilen borularla tikilən həmin xətlər A.Salamzadə küçəsindən keçən kanalizasiya və yağış suları kollektorlarına birləşdiriləcək. Bununla da yağış suları kanalizasiya sularına qarışmadan ayrı-ayrı kollektorlara axıdılacaq. Bu da yağış sularının birbaşa Xəzərə axıdılmasını təmin edəcək. Layihə çərçivəsində ərazidə toplanan yağış sularının axıdılması üçün yağış barmaqlıqları da quraşdırılır. Tikinti-quraşdırma işlərinin avqust ayının sonuna qədər başa çatdırılması nəzərdə tutulur.

Qeyd edək ki, intensiv yağıntılar zamanı H. Zərdabi küçəsində yağış sularının axıdılmasında problemlər yaranırdı. Yeni xətlər istismara verildikdən sonra belə problemlər tamamilə aradan qalxacaq.

BƏXTİYAR

## *Bahar Muradova:* "Tiranada həmsədrlərin iştirakı ilə növbəti dinləmələrin keçirilməsinə ehtiyac yoxdur"

**Müsahibimiz Milli Məclis (MM) sədrinin müavini, Azərbaycanın ATƏT Parlament Assambleyasındakı (PA) nümayəndə heyətinin rəhbəri Bahar Muradovadır.**

***—Bahar xanım, məlum olduğu kimi, qarşıdan ATƏT Parlament Assambleyasının (PA) növbəti payız sessiyası (konfransı) gəlir. Bu baxımdan, Albaniyanın paytaxtı Tirana şəhərində reallaşdırılacaq payız konfransında ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Qarabağ münaqişəsinə həsr olunmuş yeni-növbəti dinləmələrin keçirilməsi gözlənilləndirmi və bu mümkündürmü?***

—Bilirsiniz, Qarabağ məsələsi ilə bağlı məlum dinləmələrin məqsədi belə idi ki, bu,sadəcə, məlumatlandırma xarakteri daşıyırdı və ən əsası bizim burada çalışdığımız məqam ondan ibarət idi ki, yarandığı gündən, vaxtdan ötən müddət ərzində heç olmasa bir dəfə ATƏT-in öz qurumlarının birində — Parlament Assambleyasında Minsk qrupunun həmsədrləri hesabatla çıxış etsinlər, vəziyyət barədə məlumat versinlər. Hər bir ATƏT PA üzvünün də obyektiv, yəni, ATƏT-in Minsk qrupu həmsədrlərinin öz dilindən səslənən məlumatı olsun. Biz də buna nail olduq, ATƏT PA-nın 2011-ci ildə Xorvatiyanın Dubrovnik şəhərində keçirilən payız sessiyasında çox yüksək səviyyəli və geniş bir şəkildə dinləmələr oldu. Ən əsası isə bu dinləmələrin mənim üçün başlıca müsbət və üstün cəhəti ondan ibarət idi ki, Qarabağ münaqişəsi ilə bağlı obyektiv həqiqətlər artıq bu dəfə həmsədrlərin öz dilindən səsləndi...

***—Söhbət hansı obyektiv həqiqətlərdən gedir?***

— Söhbət o həqiqətlərdən gedir və ondan ibarətdir ki, həmsədrlər özləri artıq açıq şəkildə bildirirdilər ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir, 20 ildən artıq bir müddət ərzində işğalçı Ermənistan qoşunları tərəfindən Azərbaycan torpaqları işğal altında saxlanır, işğal olunmuş ərazilərin sakinləri olan 1 milyondan artıq Azərbaycan vətəndaşı neçə illərdir



qaçqın-köçkün vəziyyətində yaşayır, işğal olunmuş ərazilər Ermənistan qoşunları tərəfindən nəzarətdədir, Azərbaycan burada suveren hüquqlarını həyata keçirə , bölgəyə nəzarət edə bilmir.

Eyni zamanda, bu ərazilərdə ermənilər qeyri-qanuni şəkildə məskunlaşdırılıb, ərazi iqtisadi cəhətdən geriyə qalıb, inkişaf yoxdur, həmçinin, demoqrafik problemlər mövcuddur, yəni, humanitar fəlakət beynəlxalq ictimaiyyətin diqqətindən kənarda qalıb və münaqişə nəticəsində yaranmış status-kvo hazırda davam edir ki, bu da qəbuledilməzdir və dəyişilməlidir. Bu fikirlər o zaman həmsədrlərin dilindən səsləndi və bunu da hər kəs eşitdi. Bu, özü də nə Azərbaycan nümayəndə heyətinin , nə Ermənistan nümayəndə heyətinin fikri idi ki, qərəzli və birtərəfli mövqe kimi qəbul edilsin, bu, həmsədrlərin öz mövqeyi idi. Yəni, demək istəyirəm ki, Dubrovnik müzakirələri çox yaxşı müzakirələr idi və bu müzakirələrdən sonra da biz ötən müddət ərzində dəyişən mövqelərin şahidiyik...

***—Nə mənada?***

—O mənada ki, artıq ATƏT PA-da əksəriyyət insanlar bu münaqişədə kimin haqlı, kimin haqsız olduğunu yaxşı bilirlər. Bu mənada bəlkə də yenidən bu cür dinləmələrə, müzakirələrə ehtiyac yoxdur. Amma eyni zamanda, ATƏT-in digər qurumlarının — Nazirlər Şurasının, o cümlədən, prezidentlərin iştirak etdiyi tədbirlərin və həmsədrlərin mövqeyinə təsir göstərə bilən hansısa tövsiyə xarakterli qərarlar qəbul oluna bilər. Həmin tövsiyə xarakterli qərarlar da yalnız Parlament Assambleyasında qətnamələr şəklində qəbul edilə bilər.

Necə ki, bu yaxınlarda Gürcüstandakı vəziyyətə dair qərar qəbul olundu, ondan əvvəl isə Moldovaya dair qətnamə qəbul edildi. Yəni, bu kimi qətnamələr qəbul oluna bilər və öz-özlüyündə də bu tipli qətnamələrin indiyə qədər elə bir ciddi hüquqi nəticəsi olmasa belə, amma ən azı istinad üçün, diplomatik baqaj üçün onların qəbulu böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, gələcəkdə Qarabağ münaqişəsi ilə də bağlı belə bir qərarın-qətnamənin qəbulu mümkün ola bilər.

Onu da əgər Parlament Assambleyasının rəhbərliyi lazım bilsə ki, bu cür qətnamələrin qəbuluna ehtiyac var. Özlüyündə isə onlar belə düşünürlər ki, bu kimi müzakirələr, qərarlar bəzən danışıqların gedişinə mane olur. Çünki bir-birinə zidd olan kəskin mövqelər ortaya qoyulur və bu kəskin mövqelərin mövcud olduğu şəraitdə də hansısa ümumi qənaətə gətirə bilən bir qərarın qəbulu çox çətin olur. Ona görə burada belə — bir az mübahisəli və anlaşılmaz məqamlar var...

**Kamil HƏMZƏOĞLU**

## *Arif Məmmədov:* "Azərbaycan həmin hava gəmisini hər hansı başqa hava limanında enməyə məcbur edə bilər"

"Ermənistan tərəfi qanunsuz olaraq Xankəndi hava limanını istifadəyə verməyə çalışır və bu prosesdə beynəlxalq hüquq normalarını pozmağa cəhd göstərir.Bu yaxınlarda ATƏT-in Minsk qrupunun həmsədrləri də verdiyi bəyanatda Xankəndi hava limanı ilə bağlı fikirlərini bildiriblər, o cümlədən, Azərbaycanın dövlət rəsmiləri, siyasətçilər də bu bəyanata münasibət bildiriblər". Bu fikirləri Dövlət Mülki Aviasiya Administrasiyasının direktoru Arif Məmmədov dilə gətirib. Onun dediyinə görə, ümumi mövqe belədir ki, həmsədrlər bu məsələni həll etmək imkanında deyillər. A.Məmmədov bildirib ki, həmsədrlərin bu problemlə bağlı fikirləri çox ziddiyyətlidir və bəzi məqamlarda məntiqsizdir: "Onlar deyirlər ki, Xankəndi hava limanının fəaliyyəti siyasiləşdirilməməlidir. Bu yanaşma düzgün deyil. Ümumilikdə, bu hava limanının fəaliyyəti mümkün deyil. Yəni aeroport öz-özünə fəaliyyət göstərə bilməz. Əgər təyyarə havaya qalxırsa, başqa aeroporta enməlidir və bunun üçün hava məkanından istifadə etməlidir. Hava məkanı da Azərbaycanındır. Biz bu hava məkanından mülki hava gəmiləri üçün istifadəni qadağan etmişik. Nə üçün? Çünki biz ona nəzarət edə bilmirik və heç kim uçuşların təhlükəsizliyə zəmanət verə bilməz. Ona görə də, biz beynəlxalq aeronaviqasiya qaydalarına uyğun olaraq hava məkanını bağlı elan etmişik. Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) bu qərarımızı qəbul edib".

A.Məmmədovun sözlərinə görə, əgər ermənilər Azərbaycanın hava məkanına qanunsuz daxil olarsa, deməli beynəlxalq qaydaları pozmuş olacaq:

"Azərbaycan bəyan edib ki, öz ərazisində hazırda 6 beynəlxalq hava limanı fəaliyyət göstərir və bundan başqa yerdən havaya təyyarə qalxırsa bu hava məkanımızın pozulması halıdır. Xankəndi hava limanı üçün naviqasiya avadanlığını Fransanın "THALES" şirkətinin filialı verib. Bununla bağlı biz cari ilin may ayında şirkətin vitse-prezidenti ilə görüşmüşük. Onlar bizdən üzr istəyərək Ermənistan tərəfindən aldandıqlarını bildiriblər. Amma biz bununla razılaşmayaraq ICAO-nun prezidentinə məktubla müraciət göndərmişik. Məktubda vurğulamışıq ki, əgər Fransanın həmin şirkəti avadanlığı kimə göndərdiyini bilmirsə, bu avadanlıq terrorçuların da əlinə keçə və təhlükəsizliyə qarşı istifadə edilə bilər. Müraciət vasitəsilə təşkilatdan beynəlxalq hüquq normalarının yerinə yetirilməsi üçün müvafiq addımların atılmasını da xahiş etmişik. Yeri gəlmişkən, həmsədrlərin bəyanatının ikinci hissəsində də məsələnin beynəlxaq hüquq normalarına uyğun həll olunmasının zəruriliyini vurğulanıb". O, hətta, iyulun 23-də ICAO-nun prezidentindən cavab məktubu aldıqlarını da bildirib: "Təşkilatın rəhbəri məktubunda bizim mövqeyi təsdiqləyir. Mən yazmışdım ki, heç bir dövlət tərəfindən Azərbaycanın qaydalarının pozmayacağına ümid edirəm. Təşkilat rəhbəri də mənim fikrimi bölüşdüyünü yazıb. Məktubda qeyd edilir ki, hava məkanı pozulursa, Azərbaycan həmin hava gəmisini hər hansı başqa hava limanında enməyə məcbur edə bilər. Amma məktubda o da qeyd olunur ki, məcburi eniş etdikdə, dinc insanlara və mülki hava gəmisinə ziyan toxunmamasına çalışmaq lazımdır. Təbii ki, təyyarədəkilərin dinc insanlar olmasını müəyyən etmək üçün də məcburi enişini təmin etmək lazımdır. Hansı tədbir görülməsi isə dövlətin öz hüququdur. Məktubda ICAO-nun rəhbəri bildirib ki, Xocalı hava limanı məsələsi ilə bağlı Fransa şirkətinin nümayəndələri ilə əlaqə saxlayacaq və Azərbaycanın narahatlığını Ermənistan tərəfinə çatdıracaq. Amma Ermənistanın münaqişənin həlli ilə əlaqədər qeyri-konstruktiv mövqe tutması hamıya məlumdur. Bu dövlət BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmir. Amma buna baxmayraq, biz boş dayanmayacağıq və beynəlxalq hüquq normaları çərçivəsində addımlar atacağıq".

**KAMİL**

## *Elman Nəsirli:* "Ermənistanın məskunlaşdırma siyasəti Qarabağ münaqişəsinin dinc yolla həllinə mənfi təsir edir"

"Ermənistanda Qarabağ klanı ilə yerli klanlar arasında ciddi savaş başlayıb. Fikir ayrılıqları Ermənistandakı vəziyyəti daha da qəlizləşdirib". Bu barədə politoloq Elman Nəsirli mətbuata açıqlamasında bildirib. Onun sözlərinə görə, keçmiş prezident Levon Ter-Petrosyandan sonra faktiki olaraq, hakimiyyətdə Qarabağ klanı ölkəyə başçılıq etməyə başlayıb: "1990-cı ildən etibarən Robert Koçaryan və Serj Sarkisyan Qarabağ əsilli ermənilər olaraq hakimiyyət daxilində qruplaşma yaradıblar. Məhz buna görə də, bu gün Ermənistanda olan qüvvələr belə hesab edirlər ki, hakimiyyətin bütün strukturlarını Dağlıq Qarabağdan gələn ermənilər zəbt edib. Elə bu səbəbdən də, 2008-ci ildə keçirilən prezident seçkilərini faktiki olaraq Ermənistan xalqı tanımayıb. Nəticədə Dağlıq Qarabağ klanının yetirməsi olan Serj Sarkisyan və onun rejimi zor gücü ilə hakimiyyəti zəbt etmiş oldu. Ona görə də, bu gün Ermənistandan olan qüvvələr və Dağlıq Qarabağdan gəlmiş və hakimiyyəti ələ keçirmiş qüvvələr arasında çox ciddi fikir ayrılığı yaranıb". Onun dediyinə görə, bu fikir ayrılığı elə bir ciddi şəkildə müəyyən problemlərin və fikir ayrılıqların yaranmasına gətirib çıxarıb: "Belə fikir yaranıb ki, əgər nə zamansa Ermənistanda vətəndaş müharibəsi baş verərsə müharibəsinin bir tərəfində Ermənistanda doğulmuş insanlar, digər tərəfində isə Azərbaycan ərazisi olan Dağlıq Qarabağda doğulmuş ermənilər dayanacaq".

Politoloq deyib ki, bu məsələdə Azərbaycan dövlətinin mövqeyi bəllidir: "Münaqişənin iki tərəfi var — işğalçı Ermənistan tərəfi və işğala məruz qalmış Azərbaycan tərəfi. Ancaq Dağlıq Qarabağda yaşayan ermənilər tərəf deyillər. Onlar Azərbaycan vətəndaşlarıdır, lakin separatçıdılar. O ki qaldı icmalararası danışıqlar məsələsinə, Ermənistan tərəfi danışıqlar prosesində Dağlıq Qarabağdakı erməni icmasını bir tərəf kimi sırımaq istəyirlər. Amma Azərbaycan dövləti bunun qəti əleyhinədir və hesab edir ki, danışıqlar prosesinə üçüncü tərəf kimi Dağlıq Qarabağdakı erməni icması qatılarsa, birbaşa Dağlıq Qarabağın Azərbaycan icması da danışıqlarda tərəfi kimi çıxış etməlidir. Buna bir çox hallarda xalq diplomatiyası da deyilir. Doğrudur, Azərbaycan tərəfi münaqişənin dinc yolla həll olunması üçün erməni və Azərbaycan icmalarının əlaqələr qurmasını dəstəkləyib. Lakin Ermənistan bu təklifin tərəfdarı olmadığını dəfələrlə bildirib və nəticədə fikir ayrılığı icmalar arasında danışıqların baş tutmamasına səbəb olub. Təəssüf ki, Ermənistan dövləti münaqişənin həlli ilə bağlı bu prosesə növbəti zərbəni də vurmağa hazırlaşır. Belə ki, Suriyadan qaçqın olan ermənilərin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində yerləşdirilməsi planıdır".

E.Nəsirli deyib ki, artıq Ermənistan hökuməti bununla bağlı qapalı müzakirələr də keçirib. Bu isə heç bir halda münaqişənin dinc yolla həllinə müsbət təsirini göstərəmyəcək. Onun fikrincə, bu ATƏT-in Minsk Qrupu həmsədrləri tərəfindən qəbul edilməyən qeyri-qanuni məskunlaşma prosesidir: "Eyni zamanda, bununla bağlı faktlaşdırıcı missiya və Avropa Parlamenti bu məsələyə münasibət bildirərək belə məskunlaşmanın yolverilməz olduğunu vurğulayıb. Əgər Ermənistan belə bir plan həyata keçirərsə, bu zaman Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli mümkün olmayacaq. Həmçinin, onu da qeyd edim ki, Ermənistan dövlətinin atdığı bu qeyri-qanuni məskunlaşma prosesi ölkə əhalisi tərəfindən də böyük narazılıqla qarşılanır. Beləliklə, təcavüzkar ölkə getdikcə böhran içərisində boğulur və özünün reabilitasiya imkanlarını itirir. Ölkədə yaranmış iqtisadi-siyasi problemlər, iqtisadi tənəzzül, əhalinin dilənçi şəraitdə yaşaması Ermənistanı tərk edənlərin getdikcə artmasına gətirib çıxarıb. Bu gün Ermənistan ağır bir vəziyyətdə yaşadığı bir vəziyyətdə çox ağılsız və düşünülməmiş "məskunlaşma siyasəti" aparır və sözsüz ki, bu uğurla başa yetməyəcək. Çünki Suriya ermənilərin əksəriyyəti ticarətlə məşğul olan insanlardır. Bu insanlar ermənilərin dağıtdığı və konstruktivi olmayan ölkədə məskunlaşa bilməzlər. Ona görə də, Suriyadan olan qaçqınlar Avropa ölkələrində məskunlaşmağı daha üstün tutarlar. Beləliklə, bütünlüklə baş verən proseslər bir daha onu göstərir ki, Ermənistan prezidenti Serj Sarkisyan nə qədər hiyləgərliklə qeyri-qanuni siyasətə əl atsa da, son anda o, özünə quyu qazmış olur".

**PƏRVANƏ**

## Mirələmovun qardaşı oğlunun vəkilindən ilginc açıqlamalar

### DEPUTATIN QARDAŞI OĞLU MÜBAHİSƏ ÜÇÜN NİYƏ MƏHZ HƏMİN MƏKANI SEÇİB?

Son günlər "1001 gecə" istirahət mərkəzində baş verən qətllə bağlı yeni şayiələr yayılır. Bu məlumatlarda "1001 gecə"dəki qətl oğru dünyasının avtoritetləri Rövşən Lənkəranski və Qoca münaqişəsinin nəticəsi kimi göstərilib. Lakin vəkil Kamandar Nəsibov Vesti.az-a müsahibəsində bu versiyanı təkzib edib. O, qətldə həqiqətən də Rövşən Lənkəranskinin adının hallandığını qeyd edib. Xatırladaq ki, vəkil Kamandar Nəsibov hadisə nəticəsində saxlanılan, Milli Məclisin deputatı Hüseynbala Mirələmovun qardaşı oğlu, Rəşad Mirələmovun maraqlarını müdafiə edir.

İyulun 17-sində "1001 Gecə" istirahət mərkəzində nə baş verib? K.Nəsibovun bildirdiyinə görə, Rəşad Mirələmovla yanaşı, faktla bağlı daha 3 nəfər — Elmar Süleymanov, Elnur Qasımov və əlindən təsadüf nəticəsində yaralanmış Səməd Mənsimov saxlanılıb: "Bu 3 nəfər həmin gecə mərhum Ramal Bayramovla birlikdə olublar. Onlarla bərabər Elman adlı şəxs də olub. Hazırda həmin şəxs axtarışdadır. Daha dəqiq desək, Elman adlı şəxs Rövşən Lənkəranskiyə məxsus "Neon" restaranının idarə edir. Və istintaq nəticəsində məlum olub ki, Rəşad Mirələmovdan başqa adı çəkilən şəxslər kriminal avtoritet Caniyevin adamlarıdır" —deyə vəkil bildirib.

Vəkilin sözlərinə görə, "1001 gecə" istirahət mərkəzindəki qətlin guya bu ilin martında "VİP House" çay evində baş vermiş atışmanın davamı olması ilə bağlı məlumatlar əsassızdır. Xatırladaq ki, həmin hadisə nəticəsində Ramal Bayramov adlı şəxs yaralanıb. Bayramovun adı bir sıra xoşagəlməz hadisələrdə hallanır, həmişə ətrafına öz nüfuzunu göstərmək istəyib.

"Hər şey narkotik satışı ilə məşğul olan Firdovsi Bağırov adlı şəxsdən başlayıb, hansını ki, bu günlərdə Azərbaycan Daxili İşlər Nazirliyini Narkotiklərlə Mübarizə üzrə Cənub Reginol Şöbəsinin əməkdaşları saxlayıb. O, Lənkəran şəhərində narkotiklərin satışı ilə məşğul olub və Rəşad ona dəfələrlə xəbərdarlıq edib ki, bu işi dayandırmasa onu cəzalandıracaq. Bağırov hətta öz oğlu vasitəsilə Mirələmov barəsində polis orqanlarına da şikayət də edib. Lakin axtarışlar bir nəticə verməyib. Sonra qonşusu Rəşada kömək məqsədilə müraciət edib, o bildirib ki, hazırda həbsdə olan qardaşı ilə Bağırovun ortaq işi olub və Bağırovun ona müəyyən məbləğdə borcu qalıb. Qonşu Rəşaddan Firdovsiyə pulu onun evində işləyən ustalara verməsi üçün təzyiq etməyini xahiş edib. Rəşad dəfələrlə Bağırova pulun ustalara verilməsini bildirib. Amma məsələ nəticəsiz qalıb. Hətta Firdovsi onu Ramal Bayramova da şikayət edəcəyini bildirib. Bax elə burdan da R. Bayramovla R. Mirələmov arasında konfilikt yaranıb"- deyə vəkil bildirib.

Sonradan məlum olub ki, bundan sonra Bayramov Mirələmova zəng etməyə və onu öldürməklə hədələməyə başlayıb. O, dəfələrlə Mirələmova görüş yeri təyin edib. Rəşad bunun heç də yaxşı nəticə verməyəcəyini bildiyi üçün hər dəfə onunla görüşdən imtina edib. "Lakin sonradan Mirələmov onunla görüşdən qaça bilməyəcəyini anlayanda, Ramalla "1001 gecə" restoranında görüşməyə qərar verir. O, bununla da görüşün daha təhlükəsiz keçəcəyini ehtimal edib. Bütün bunlar onu göstərir ki, Bayramovla görüşü öz yaxın qohumunun obyektində təyin edən Mirələmovun qətl törətmək fikri olmayıb" —deyə vəkil bildirib.

Onu da qeyd etmək lazımdır ki, 2008-ci ildə Nəsibovun müdafiə etdiyi şəxsi, məhkəmə səhhətindəki pisixi pozğunluğa görə məcburi müalicəyə göndərib. Ümümilikdə o, 6 ilə qədər azadlıqdan məhrum edilib. Mirələməv taksi sürücüsünü öldürdüyünə görə həbs olunub. Taksi sürücüsü onu təhqir etdiyindən, onlar arasında mübahisə başlayıb. Mirələmov taksi sürücüsünə zərbə vurur və o, aldığı ağır zədələr nəticəsində vəfat edir.

İyulun 17-sində Mirələmov "1001 gecə" restoranına özünü müdafiə etmək məqsədilə silahını gətirir. Çünki o dəfələrlə Bayramov tərəfindən ölümlə hədələndiyən, onun bu niyyətini həyata keçirəcəyindən qorxurdu. Hazırda Mirələmovu qəsdən adam öldürməkdə, adam öldürməyə cəhddə, üzərində odlu silah gəzdirməkdə və qanunsuz olaraq pul tələb etməkdə ittiham olunur.

"Ona qarşı qaldırılan qəsdən adam öldürmək, adam öldürməyə cəhd və qanunsuz olaraq pul tələb etmək ittihamları tamamilə əsassızdır. Mirələmov sadəcə Bağırovdan pulu ustalara verməsini istəyib. Firdovsi Bağırov da istintaq zamanı Mirələmovun sözlərini faktiki olaraq təsdiqləyib. Mirələmov və Bayramov arasında münaqişənin yaranmasının səbəbi Firdovsi olub. Əlavə edək ki, onun qardaşı da narkotik aludəçisidir" —deyə Nəsibov bildirb.

Vəkil bildirir ki, R.Mirələmovun kimisə öldürmək barədə fikri belə olmayıb. Bayramov özü birinci ona hücum edib, döyməyə başlayıb sonra ölümcül xəsarət yetirmək məqsədilə cibindən bıçaq çıxarıb. Bu zaman yerə sərilən R. Mirələmov odlu silahı götürərək, yaxın məsafədə olan Bayramovun döş qəfəsinə atəş açır. Onun dostlarının qisas alacağından qorxan Mirələmov qəsdən heç kimi nişan almadan atəş açmağa başlayıb. Nəticədə isə güllə Mənsimova dəyib.

Vəkilin sözlərinə görə, R. Mirələmovun kriminal aləmlə heç bir əlaqəsi yoxdur. Hazırda faktla bağlı cianyət işi davam edir. İstintaq orqanlarına isə Mirələmov və digər saxlanılan şəxslər arasında münasibətləri araşdırmaq qalır.

## İslam Partiyası sədrinin sabiq müavini Hacı Mehdi Şamilli həbs olunub

Azərbaycan İslam Partiyası (AİP) sədrinin sabiq müavini Hacı Mehdi Şamilli həbs olunub.

Sabunçu Rayon Polis İdarəsindən APA-ya bildirilib ki, M. Şamilli srağagün polis əməkdaşlarının keçiridiyi əməliyyat zamanı saxlanılıb və onun üzərində aparılan axtarış zamanı 6,69 qram marixuana aşkar edilib. M. Şamilli barəsində Azərbaycan Cinayət Məcəlləsinin 234-cü (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) maddəsi ilə cinayət işi başlanıb, təhqiqat aparılır.

Qeyd edək ki, Hacı Mehdi Şamilli Azərbaycan İslam Partiyasının təsisçilərindən biri olub. Lakin 1998-ci ildən partiyadakı fəaliyyətini dayandırıb. M. Şamilli Zabrat qəsəbə sakinidir.

## Azərbaycan diaspora təşkilatlarının Bodrum forumunda birgə bəyanat qəbul olunub

Türkiyənin Bodrum şəhərində "Xarici ölkələrdə yaşayan azərbaycanlıların cəmiyyətə inteqrasiyası: mövcud vəziyyət və perspektiv gözləntilər" mövzusunda forum öz işini başa vurub. Tədbirin sonuncu günü komitə sədri Nazim İbrahimov çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin prioritet istiqamətlərindən biri də soydaşlarımızın hüquq və azadlıqlarının müdafiəsi ilə bağlıdır. Bu sahədə ötən müddət ərzində müəyyən işlər görüldünü qeyd edən N.İbrahimov dünyanın bir sıra ölkələrində azərbaycanlıların hüquq və azadlıqlarının müdafiəsi ilə məşğul olan hüquq-müdafiə mərkəzləri fəaliyyət göstərdiyini diqqətə çatdırıb. O, xüsusilə Gürcüstanda son illərdə azərbaycanlıların hüquq və azadlıqlarının qorunması sahəsində bir sıra uğurlu layihələrin həyata keçirildiyini bildirib.

Prezident Adminstrasiyası ictimai siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov isə deyib ki, mürəkkəb qlobal siyasi və iqtisadi proseslərin cərəyan etdiyi müasir dünyada Azərbaycanın milli-maraqlarının qorunmasında diaspor təşkilatlarının da üzərinə böyük vəzifələr düşür. PA rəsmisi forumda aparılan müzakirələrin əhəmiyyətini yüksək qiymətləndirərək, burada səslənən bütün təkliflərin qeydə alındığını, onların hər birinin araşdırılacağını bildirib. O, xaricdə təhsil alan azərbaycanlı tələbələrin diaspor təşkilatları ilə fəal əməkdaşlıq etməsinin vacib olduğunu qeyd edib və Azərbaycan dövlətinin də xaricdə yaşayan soydaşlarımızın mənafelərini həmişə nəzərə aldığını vurğulayıb. "Bu cür tədbirlərin məqsədi xaricdə yaşayan azərbaycanlılar arasında əməkdaşlıq əlaqələrinin qurulmasına nail olmaq, soydaşlarımızın problem və qayğılarını öyrənmək, onların həlli yollarını tapmaqdan ibarətdir. Bu forum, bir daha təsdiq edir ki, Azərbaycan dövləti hər bir azərbaycanlının arxasındadır, ona dayaqdır".

Ə.Həsənov aparılan müakirələrin, qəbul olunmuş qərarların Azərbaycan diasporunu daha da gücləndirəcəyinə inandığını deyib. "Biz heç bir diaspor təşkilatına göstəriş verə, onların fəaliyyəti ilə bağlı qərar qəbul edə bilmərik. Biz yalnız sizə müəyyən tövsiyələr verə bilərik, qəbul etdiyiniz qərarların icrasında dəstək göstərə bilərik. Bizim istədiyimiz dünya azərbaycanlılarının birliyinə nail olmaq, diasporun daha güclü, daha mütəşəkkil qüvvəyə çevrilməsidir" — deyən Ə.Həsənov forumun işindən razı qaldığını vurğulayıb.

Sonra forum iştirakçıları adından Azərbaycan Prezidenti İlham Əliyevə müraciət qəbul olunub. Müraciətdə forum iştirakçılarının Azərbaycan diasporuna göstərdiyi diqqət və qayğıya görə Prezidentə minnətdarlığı öz əksini tapıb.

Sənəddə qeyd olunub ki, Azərbaycan diaspor təşkilatları bundan sonra da ölkəmizin milli maraqlarının qorunması və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində səylərini əsirgəməyəcəklər.

Toplantının sonunda müzakirələrdə irəli sürülmüş təkliflər əsasında hazırlanmış Forumun yekun sənədi — "Azərbaycan diaspor təşkilatları rəhbərlərinin "Xarici ölkələrdə yaşayan azərbaycanlıların cəmiyyətə inteqrasiyası: mövcud vəziyyət və perspektiv gözləntilər" mövzusunda forum işitrakçılarının birgə bəyanatının layihəsi səsə qoyularaq qəbul edilib.

25 bənddən ibarət olan sənəddə gənclərin və qadınların diaspor quruculuğu işinə daha fəal şəkildə cəlb olunması, lobbi quruculuğu sahəsində fəaliyyətin genişləndirilməsi, Türkiyədə yaşayan azərbaycanlı ziyalıların forumunun, Orta Asiyada fəaliyyət göstərən Azərbaycan diaspor Təşkilatlarının birgə toplantısının, Ukrayna Azərbaycanlıları Qurultayının və Skandinaviya Ölkələri Azərbaycanlılarının Konqresinin təşkili lə bağlı müddəalar öz əksini tapıb.

Bundan başqa, bəyanatda soydaşlarımızın kompakt yaşadığı regionlarda şəbəkələrə malik "Azərbaycan diasporu İnformasiya mərkəzi"nin yaradılması, "Xocalıya ədalət — Qarabağa azadlıq" beynəlxalq kampaniyasına dəstəyin gücləndirilməsi, xaricdə yaşayan azərbaycanlı uşaqlar üçün Azərbaycanda yay düşərgələrinin təşkili ilə əlaqədar müvaviq dövlət orqanlarına müraciət edilməsi də nəzərdə tutulmuşdur. Forum Dünya azərbaycanlı elm xadimlərinin forumunun təşkil edilməsi, "Virtual həftəsonu" məktəbinin fəaliyyəinin təkmilləşdirilməsi, "Avropa Birliyi ölkələrində azərbaycanlıların cəmiyyətə inteqrasiya prosesləri: mövcud təcrübə, problemlər və onların həlli yolları" mövzusunda forumun keçirilməsi, növbəti Rusiya-Azərbaycan İqtisadi Forumunun Ukyanovsk şəhərində keçirilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq təkliflərin verilməsini də qərara almışdır.

Bununla da forum öz işini başa çatdırıb.

**PƏRVANƏ**

## Azərbaycanlı tələbələrin Vyana Forumu keçiriləcək

Oktyabrın 26-27-də "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi" mövzusunda Avropa ölkələrində təhsil alan azərbaycanlı tələbələrin Vyana Forumu keçiriləcək.

Azərbaycan Gənclər Fondunun mətbuat katibi Aynur Həsənzadənin APA-ya verdiyi məlumata görə, forum Azərbaycan Respublikasının Xarici İşlər, Gənclər və İdman nazirlikləri, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, Azərbaycanın Avstriyadakı səfirliyi, Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondu, "Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı İcması" İctimai Birliyi və ASAIF-in təşkilatçılığı ilə baş tutacaq. Forum çərçivəsində Azərbaycanın rəsmi şəxsləri və ekspertlər Ermənistan-Azərbaycan münaqişəsinin tarixi aspektlərindən, danışıqlar prosesinin hüquqi, humanitar və digər aspektləri ətrafında müzakirələr aparacaq.

Forumda iştirak etmək üçün hal-hazırda Avropa ölkələrində təhsil alan azərbaycanlı tələbələr, magistrlar və doktorantlar müraciət edə bilərlər. Forumda iştirak etmək istəyənlər müraciət formasını doldurub vyanaforum@gmail.com elektron ünvanına göndərməlidirlər. http://youthfoundation.az/vyanaforum/

Qeyd olunub ki, müraciətlərin son qəbul tarixi 10 sentyabrdır.

**“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə**

# “Mətbuatda yaşayan işıq”




## YENİ NƏŞR OLUNAN BU KİTAB UNUDULMAZ MƏTBUAT XADİMİ, ƏMƏKDAR JURNALİST MƏMMƏD MƏMMƏDOVUN HƏYAT VƏ YARADICILIQ YOLUNA GÜZGÜ TUTUR

2011-ci il may ayının 21-də fəal mətbuat xadimi, dəyərli jurnalist, yaxın dostum Məmməd Məmmədov faciəli şəkildə dünyasını dəyişdi. Onu tanıyanlar bu itkini dərin ağrıyla qarşıladılar, M. Məmmədov haqqında neçə-neçə yazı qələmə alındı, onun fəaliyyətinə, yaradıcılığına, mətbuatdakı yerinə aid məqalələr, xatirələr yazıldı. Naxçıvan Dövlət Universitetinin rektoru, akademik İsa Həbibbəyli “Mətbuatda yaşayan işıq”, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev “Mənalı ömür yolunun yolçusu”, “Azərbaycan” qəzetinin kollektivi “İş yoldaşımızın xatirəsi”, “Azərbaycan” qəzetinin şöbə müdiri Xalid Niyazov “Siz həmişə bizimləsiz”, “Kəlam” jurnalının redaktoru Niyaz Niftiyev “Yerin görünür”, “Kaspi” qəzetinin baş redaktoru Natiq Məmmədli “Yaxşı yol, Məmməd müəllim”, “Şərq qapısı” qəzetinin müxbiri, tələbə yoldaşı, dostu Kərəm Həsənov “Jurnalistikada Məmməd Məmmədov məktəbi”, “Jurnalistikada aydın bir iz: milli mətbuatda Məmməd Məmmədov imzası”, “Oğuz səsi” qəzetinin redaktoru Şəhla Nəbiyeva “Əziz və unudulmaz bir imza, yaxud dost itirməyin ağrısı”, “AMEA Naxçıvan Bölməsinin elmi işçisi Musa Quliyev “Elegiya əvəzi — kədərli etiraf”, “Simsar” jurnalının redaktoru Elmar Hüseynov “Bizdən ayrılanlar”, AMEA Naxçıvan Bölməsinin elmi işçisi Elxan Yurdoğlu “Uzun, incə bir yol”, “Örnək jurnalist, əvəzsiz baş redaktor, əsl mətbuat fədaisi”, “Kaspi” qəzetinin müxbiri Rufik İsmayılov “Şərq qapısı”nda tanıdığım dəyərli mətbuat xadimi, unudulmaz insan”, AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsinin əməkdaşı Türkanə Bəylərli “Unudulmaz gözəl insan Məmməd Məmmədovu xatırlayarkən”, AMEA Naxçıvan Bölməsinin böyük elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ələkbər Qasımov “Sabahını görən insan” adlı məqalələrlə mətbuatda çıxış etdilər. Onlar milli jurnalistikada xüsusi yeri və rolu olan əvəzolunmaz jurnalist, özünəməxsusluğu və təkrarolunmazlığı ilə seçilən publisist, araşdırıcı alim, ictimai—siyasi proseslərdə yaxından iştirak edən fəal ictimaiyyətçi, deputat Məmməd Məmmədovun həyat və yaradıcılıq salnaməsini vərəqlədilər. Bu müddət ərzində, ölümü ilə ölümsüzlüyə qovuşan Məmməd Məmmədov cismən bizdən ayrılsa da, ruhən bizimlə — qələm əhli ilə birgə yaşadı.

Məmməd Məmmədov zirvəsinə hər kəs öz prizmasından yanaşdı, onu gördüyü və düşündüyü kimi təsvir etməyə çalışdı.

Akademik İsa Həbibbəyli onun haqqında bu sözləri yazıb: “Bir əsrə yaxın inkişaf yolu keçmiş “Şərq qapısı” qəzetinin tarixində xüsusi bir Məmməd Məmmədov mərhələsi mövcuddur. “Şərq qapısı”nın Məmməd Məmmədov dövrü bu çoxillik qəzetin intibah mərhələsi kimi səciyyələnə bilər”.

Akademik İsmayıl Hacıyev elmi rəhbəri olduğu Məmməd Məmmədovun fəaliyyətini hərtərəfli təhlil edərək, bu fikirləri önə çəkib: “Məmməd müəllim çox məhsuldar jurnalist, publisist və araşdırıcı idi. Onun hər bir əsəri müəllifin uğuru kimi qeyd edilə bilər: “Naxçıvan kiçik Azərbaycandır” (1998), “Şərqin qapısı Naxçıvan” (2001), “Ömrün qırxıncı baharı” (2002), “Heydər Əliyev çörəyi” (2004), “Mənim qəzetli dünyam” (2006), “Siyasətdə Naxçıvan dərsləri” (2009), “Naxçıvan: dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı” (2011), “Mənim həyat məktəbim” (2011). Amansız qəfil ölüm həmkarımız Məmməd müəllimin yaradıcılıq planlarını yarımçıq qoydu. Lakin təsəllimiz odur ki, onun oxucularla görüşü yüzlərlə publisist yazılarda, oçerklərdə, elmi məqalələrdə və adını qeyd etdiyimiz 9 kitabda öz ifadəsini tapmışdır. 2005-ci ilin dekabrın 10-da “Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər” (1988-2005-ci illər) adlı namizədlik dissertasiyası müdafiə etdi. Məmməd müəllim burada özünü yetkin tədqiqatçı, vətən tarixinin bilicisi və təəssübkeşi kimi bir daha təsdiq etdi. Qeyd olunan mövzu ilə bağlı Məmməd müəllimin bir monoqrafiyası və 50-dən çox elmi məqaləsi çap olunmuşdu”.




“Azərbaycan” qəzeti Məmməd Məmmədovu belə xarakterizə edib: “Məmməd həssas həmkar idi. Qəzetimizdə elə bir uğurlu yazı olmazdı ki, zəng vurub müəllifə təşəkkür etməsin. Məmməd həm də təbii insan idi. Necə var idisə, elə də görünürdü, özünü başqa cür təqdim etməyi heç fikirləşmirdi də... Fikirləşdiyi dilində, dilindəki əməlində idi”.

Jurnalist həmkarı və dostu Xalid Niyazovun fikirləri də maraqlıdır: “O, saatın, günün, hətta anın “hulqumundan sıxıb” vaxtdan səmərəli bəhrələnməyi bacarırdı... Hər şeyi zamanında həll etməyə çalışırdı, bəzilərimiz kimi zamanın insafına buraxmayıb, namizədlik elmi işini vaxtında yazıb alimlik dərəcəsi də aldı. Deputat kimi ictimai fəaliyyətdən də qalmadı, jurnalist kimi də qələmini ovxardan düşməyə qoymadı... Hərdən mənə belə gəlir ki, Naxçıvan barədə daha heç kim Məmməd kimi sevgi ilə, təndirdən təzəcə çıxmış lavaştək isti, ətirli, kövrək yazılar yazmayacaq”.

“Kaspi” qəzetinin baş redaktoru Natiq Məmmədli isə yarımçıq qalan bir ömür yolunun yolçusu ilə vidalaşdığı anı belə təsvir edib: “Yaxşı yol, qardaş”. Hər dəfə görüşüb ayrılanda Məmməd müəllimə belə deyərdim. Bilirdim ki, yolu uzaqdı. Naxçıvan buracıq-oracıq deyil. Amma sonuncu dəfə dediyim “Yaxşı yol” isə heç yaxşı yol olmadı. Əziz dostumuzun, gözəl jurnalistin ömrü 49-cu ilində elə yoldaca qırıldı”.

Məmməd Məmmədovun redaktorluq və müəllimlik bacarığının nəticəsidir ki, onun açdığı cığırla irəliləyən, vətənə, xalqa sədaqətlə, bacarıqla xidmət edən bir jurnalist nəsli yetişib. Hazırda Məmməd Məmmədov məktəbinin yetirmələri müxtəlif mətbuat orqanlarında və dövlət qurumlarında çalışırlar. Sahil Tahirli Naxçıvan MR Ali Məclisinin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsində, Rufik İsmayılov “Kaspi” qəzetində, Elmir Şirinov Azərbaycan Respublikası Vergilər Nazirliyində, Elmar Hüseynov “Simsar” jurnalında, Hafizə Əliyeva “Arazın səsi” qəzetində, Fərid Hacıyev Rabitə Nazirliyində, Azad Nağıyev Nəqliyyat Nazirliyində, Türkanə Bəylərli AMEA Naxçıvan Bölməsində, Rahil Tahirli Gömrük Komitəsində, Lətafət Əhmədova isə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində mətbuatla bağlı sahələrdə çalışırlar.

Bu il 22 iyul Milli Mətbuat Günündə Məmməd Məmmədovu onun oğlu, jurnalist həmkarımız Vüsar Məmmədovun nəşr etdirdiyi “Mətbuatda yaşayan işıq” adlı kitabı ilə yad etdik. Naxçıvan MR Ali Məclisinin “Əcəmi” Nəşriyyat Poliqrafiya Birliyində nəfis tərtibatla nəşr olunmuş 280 səhifəlik bu kitabda Məmməd Məmmədovun dünyasını dəyişməsindən sonra onun haqqında xatirələrini yazıb mənəvi borcunu yerinə yetirən müəlliflərin məqalələri dərc edilib. Burada Məmməd Məmmədovun həyat və fəaliyyətinin müxtəlif məqamlarına şahidlik edən fotolar, rəsmi sənədlər, 9 elmi və publisistik kitabına yazılmış resenziyalar və müxtəlif mətbuat orqanlarına verdiyi müsahibələr öz əksini tapıb. Hər birimizə örnək olacaq bir ömür yaşamış Məmməd Məmmədovun həyat və fəaliyyətini özündə əks etdirən bu kitab onun ölməz xatirəsinə əbədi məhəbbətin ifadəsidir.

**K.HƏSƏNOV**

**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

# "Dolu" bizi yaman "vurdu"

**“Dolu” filmi haqqında qeydlər**

### Filmin rejissoru

Hələ uşaq yaşlarından bir neçə filmə çəkilən rejissor Elxan Cəfərov hal-hazırda rejissor kimi fəaliyyət göstərir. Bakıda ziyalı ailəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra Moskva Dövlət Kinematoqrafiya İnstitutunda aktyorluq fakültəsində təhsil alıb. Bir müddət Azərbaycan Dövlət Dram Teatrı və “Yuğ” teatrında aktyor kimi çalışıb. Azərbaycan Dövlət Televiziyasında və özəl studiyada fəaliyyət göstərib. 1995-ci ildə ilk qısametrajlı filmini, sonralar isə müxtəlif klip və reklam çarxları çəkib. Onun ifa etdiyi çoxsaylı uşaq rolları arasında A.Dovjenko adına kinostudiyanın “Hazır Ol, Əlahəzrət” (1977) filmində şahzadə rolu da var. Rejissor Elxan Cəfərov sənədli filmlər rejissoru Pərviz Cəfərovun və tanınmış jurnalist və publisist Mailə Muradxanlının oğludur. Rejissor Elxan Cəfərov aktrisa Gülzar Qurbanovanın həyat yoldaşıdır. Onun haqqında əldə etdiyimiz ən dolğun məlumat hələ ki, yuxarıda qeyd etdiklərimizdir. Filmoqrafiyasında 20-yə yaxın film olsa da, haqqında çox az yazılıb. Elxan Cəfərovun 2010-cu ildə çəkdiyi “Əlavə təsir” filmi şəxsən kino həvəskarı kimi mənim çox xoşuma gəlmişdi. Filmin ssenarisi də, rejissor işi də olduqca bəyənilən idi. “Dolu” filminin rejissorunun Elxan Cəfərov olduğunu eşidəndə filmə marağım xeyli artmışdı. Onun bu işin öhdəsindən gələcəyinə, filmin sevilən bir film olacağına inanırdım. “Dolu” romanını Qarabağ savaşından bəhs edən romanların ən yaxşılarından biri, bəlkə də birincisi olduğu üçün Elxan Cəfərovdan mükəmməl bir film gözləmək oxucuların haqqı idi. Mən film haqqında təəssüratlarımı kino tənqidçisi, kino şərhçisi kimi yazmaq fikrindən uzağam. Film haqqında seyirci, tamaşaçı kimi yazsam daha doğru olar, düşüncəsindəyəm.

### Filmin ssenarisi

Nizami Kino Mərkəzində keçirilən ilk təqdimata gedə bilməsəm də, ikinci təqdimata özümü yetirdim. Etiraf edim ki, Aqil Abbasın “Dolu” romanı əsasında çəkilən bu filmi çox həvəslə gözləyirdim. Təqdimatın əvvəlində çıxış edən ssenari müəllifi, yazıçı Aqil Abbas bildirdi ki, “Heç kəs baxdığı filmlərin ssenari müəllifini yadında saxlamır, filmin adı çəkiləndə ilk ağla gələn filmin rejissoru olur.” Mən bu fikirlə razıyam, çünki sevə-sevə baxdığım filmlərin ssenari müəlliflərini yadda saxlamaqda həmişə çətinlik çəkirəm. Ancaq əminəm ki, bu filmin rejissorundan daha çox, ssenari müəllifinə görə yadda qalacaq. Çünki “Dolu” kifayət qədər populyar və maraqlı romandır. “Dolu” adı gələndə məncə ilk ağla gələn hələ ki, Aqil Abbasdır. Bəlkə gələcəkdə “Dolu”dan söz düşəndə Aqil Abbası yox, Elxan Cəfərovu xatırladılar, ancaq hələ ki, film ssenari müəllifinə görə tanınır.

### Uğurlu ekran həlli

Öncədən qeyd edim ki, “Dolu” romanının çox cüzi hissəsi ekranlaşdırılıb. Romanda hadisələr daha canlı, daha təsirlidir. Film başlayan andan adamı öz təsirinə salmağı bacarır. Elə ilk səhnələrdən tamaşaçı maraqlı bir filmə baxacağını hiss edir. Romandan yaxşı tanıdığımız əsas obraz Komandir, ömrünün ahıl çağında, yaşağıdığı çətinliklərdən sonra doğma rayonunda-Ağdamda çayxanada oturub amansızcasına yağan dolunun təsiri ilə qanlı-qadalı müharibə illərini, Ağdama dolu kimi yağan, hamını və hər şeyi məhv edən, “ağ evli” Ağdamın təbii düzənini pozan “Qrad” mərmilərini xatırlayır. Filmin başlanğıcı o qədər təbii və inandırıcı çəkilib ki, rejissorun Elxan Cəfərov olduğunu bilməsəydim hətta bu filmin Azərbaycanda çəkilməyini şübhə altına alardım. Film haqqında ilk təəssürat olaraq demək lazımdır ki, rejissor istədiyinə nail olub və “Dolu”nun ekran həllini tapıb.Qeyd edim ki, Azərbaycan kinosunda bu cür döyüş səhnələri, ermənilərin əliyalın camaatı necə qırması ilk dəfədir ki bu cür inandırıcı canlandırılıb. Filmin bu səhnələri olduqca inandırıcıdır. Rejissor bu səhnələr vasitəsi ilə ermənilərin amansızlığını və vəhşiliyini demək olar ki, göstərə bilib. Bəzi yerlərdə kameranın əsməsi, rənglərin qarışması, aktyorların qriminin nəzərə çarpması təəssüf doğursa da, film uğurlu alınıb.



### Aktyor seçimi

Filmdə daha çox üç obraz yadda qalır: Komandir — Məmməd Səfa, Drakon — Rza Rzayev və Pələng — Elvin Əhmədov. Ancaq filmə baxanlar da yəqin ki, mənimlə razılaşar ki, Komandir obrazı olduqca pafosludur. Məmməd Səfa aktyor məharəti ilə bu pafosu gizlətməyə çalışsa da, müəyyən məqamlarda bunu bacarmır. Məsələn, Komandirin Bakıdan gələn jurnalistlə söhbəti olduqca pafoslu və darıxdırıcıdır. Məncə bu məqamda rejissor aktyorun keyfiyyətlərini lazımınca dəyərləndirməyib. Bəlkə də, ssenaridəki pafosun dozasını azaltmaq yerinə düşərdi. Çünki Məmməd Səfa pafosdan uzaq aktyordur.Rza Rzayev və Elvin Əhmədovun filmdə ilk işləri olsa da, hər ikisi kifayət qədər işinin öhdəsindən gəlməyə çalışıb. Açığı Rzanın oyunu məni daha çox cəlb elədi. Bəzi jestləri və üz ifadələri ilə Hollivudun döyüş filmlərindəki qəhrəmanları xatırladan aktyor müəyyən səhnələrdə dozanı bir az artırıb. Amma film boyu özünü Drakon kimi hiss etməyi də bacarıb. Pələng obrazını canlandıran Elvin isə, obrazı sevdirmək üçün çox çalışıb. Mən romandakı Pələngi tamamilə başqa cür təsəvvür edirdim. Elxan Cəfərovun seçiminə də irad bildirmək insafsızlıq olar, amma Elvinin məsum üz ifadəsi, bəzi səhnələrdə tərəddüdləri olmasaydı daha yaxşı olardı. Ümumi yanaşsaq Rza və Elvin öz rollarının öhdəsindən gələ biliblər. Mənim fikrimcə Elvinlə müqayisədə Rza daha inandırıcı idi. Fərhad İsrafilov, Fuad Poladov, Şamil Süleymanov, Gülzar Qurbanovanın da rolları haqqında danışmağa dəyər. Sevilən aktyorumuz Fuad Poladov bu filmdə də çəkildiyi rola tam olaraq uyğun gəlir. Amma tam səmimi deyirəm ki, Fuad Poladov və Gülzar Qurbanova məni bu filmdə inandıra bilmədilər. Xüsusilə Gülzar xanımın yaratdığı obraz çox uğursuz alınıb. Səhnələrin birində aktrisanın hətta dodaq boyası da ciddi şəkildə hiss olunur. Xüsusilə Pələngin yas məclisində aktrisanın üzündə oğlu şəhid olan anaya məxsus heç bir ifadə hiss olunmurdu və bu səhnədəki oyun da uğursuz idi. Məncə filmin ən uğursuz seçimi aktyor Gülzar Qurbanovadır.Fərhad İsrafilov və Şamil Süleymanovun yaratdığı obrazlar milis rəisi və müəllim obrazları da xüsusilə canlı və inandırıcıdır. Jurnalist rolunu canlandıran Vüsal Murtuzəliyevin yaratdığı obraz da maraqlı alınıb. Musiqi seçimi olduqca uğurlu hesab edilə bilər. Polad Bülbüloğlunun filmə yazdığı musiqi olduca gözəl və filmlə həmahəngdir.

### Və sonda...

Bütün uğurları və xırda qüsurları ilə birlikdə film çox gözəl alınıb. Əsərin ən möhtəşəm və təsirli hissəsi filmin sonudur. At belindəki uşağın xəbərdarlığına baxmayaraq Komandir sərhəddi keçir. (Burdakı uşaq Qarabağsız böyüyən övladlarımızı simvolizə edir. Məncə Qarabağsız doğulan qarabağlılar Komandirin sərhəddi keçmək arzusunu anlamaqda acizdir.) Filmin sonunda bütün ruhlar, şəhid olmuş qəhrəmanların, sadə insanların ruhları Ağdama doğru yol alır. Məhz bu səhnə insanda gələcəyə, Qarabağın azad olunacağına böyük inam yaradır. Müəyyən səhnələr, xüsusilə Pələngin ölüm səhnəsi əsərdə olduğu qədər təsirli olmasa da, şəxsən məni ağlatmağı bacardı.

Qeyd etdiyim bütün iradlara rəğmən “Dolu”nu son illər Azərbaycan kinematoqrafiyasında müharibə, savaş, Qarabağ gerçəklikləri haqqında çəkilmiş ən uğurlu ekran əsəri hesab edirəm. Çünki film Qarabağ və müharibə həqiqətlərini olduğu kimi əks etdirib. Aktyor oyununda xırda qüsurlar olsada ümumi ansambl filmi baxımlı və maraqlı etməyi bacarıb. Övladlarımıza tövsiyə edə biləcəyimiz, hələki yeganə, Qarabağla bağlı film hesab edirəm “Dolu”nu. Könül istərdi ki, bu film sərhədlərimizi aşıb dünyaya çıxmağı da bacarsın. Ümid edirəm ki, film üçün çəkilən əziyyət itməyəcək. Filmin bütün yaradıcı heyətinə isə minnətdaram. Doğurdan da “Dolu” bizi “vurdu”.

**Cəlil CAVANŞİR**

## Təbrik

Bu gün Turan balanın bir yaşı olur. Ad günü münasibətilə babaları Vaqif, Seyid Süleyman, nənələri Arifə, Rəna, atası Nəsimi, anası Aytən Turanı təbrik edir, ona işıqlı gələcək arzulayırlar.



AGBankın keçirdiyi “Təcili pul köçürmələri sistemləri” kampaniyasının iyul ayı üzrə qalibləri müəyyən olundu.

Bunlar Kəmal A. Ağaməmmədov — AGBank Şamaxı filialı, Ruqiyyə Ə. Novruzova — Inşaatçılar filiallı və Elxan İ. Fərəcov — Azadlıq filialının müştəriləridir.

Biz onları təbrik edirik!

Xatırladaq ki, AGBankda Western Union, Interexpress, Contact, Bistraya pocta, Blizko, Faster, Lider, Miqom və Coinstar təcili pul köçürmələri sistemləri mövcudur!

Hər ayın üç qalibi AGClub Standart paketi və 20 manat məbləğində nağd pulla mükafatlandırılacaq.

Kampaniya cari ilin sonuna qədər qüvvədədir!

Kərim, Rəhim, Əli və Səlim qardaşları yaxın dostları Elbrusa dayısı

**Murtuz Ələsgərovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Q□zet 1992-ci il noyabrın 17-d□n çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar □liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet “Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: “525” şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2696
“TURAN”, “TREND”, AzərTAc, “AssA-İradə”, APA v□ “OLAYLAR”ın informasiyalarından istifad□ olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.